

# Beynəlxalq nüfuzlu alim

**Azərbaycanda milli kitabxanaşünaslıq elminin banisi, ali kitabxanaçılıq təhsilinin təşkilatçılarından və yaradıcılarından biri, beynəlxalq nüfuzlu kitabxanaşünas alim Abuzər Alı oğlu Xələfovun anadan olmasının 75, elmi-pedaqoji fəaliyyətinin 50 illiyi tamam olur.**

Professor A.Xələfov BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktorudur.O 2000-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Görkəmli kitabxanaşünas alimin yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi və Bakı Dövlət Universiteti əmr vermiş və tədbirlər planı hazırlamışdır. Hazırda həmin planda nəzərdə tutulan tədbirlər həyata keçirilməkdədir.

XX əsrin 50-ci illəri Azərbaycan elminin, mədəniyyətinin və incəsənətinin bütün sahələri sürətli inkişaf dövrü kimi xarakterizə olunur. Bu, hər şeydən əvvəl həmin illərdə milli elmi kadrların yeni nəslinin yetişməsi və formalaşması ilə bağlı olmuşdur. Əgər əvvəllər Azərbaycan elmini yaxın və uzaq xaricdə əsasən rus alimləri təmsil edirdisə, 50-ci illərdən bu tendensiya milli kadrların hesabına dəyişdi. Azərbaycan elmini dünya miqyasına çıxaran, onu layiqincə tədqiq və təbliğ edən çox nüfuzlu alimlər yetişdi. Həmin dövrün yetirmələrindən biri də əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfovdur.

Abuzər Xələfovun yaradıcılığı və həyat fəaliyyəti çoxşaxəlidir. Lap kiçik yaşlarından əmək fəaliyyətinə başlayan A.Xələfov bütün şüurlu ömrünü və yaradıcılığını kitabxanaşünaslıq elminin inkişafına həsr etmiş və hazırda da yorulmadan bu sahədə çalışır, yazır və yaradır. Cavan yaşlarından Rusiyanın görkəmli alimlərinin diqqətini cəlb edən Abuzər müəllim Azərbaycanda kitabxanaşünaslıq elminin əsasını qoymuşdur. Onun kitabxana işinin tarixi, nəzəriyyəsi və metodologiyası sahəsində apardığı elmi-tədqiqat işləri sonradan bir neçə monoqrafiyaya və saysız məqalələrə çevrilmişdir.

Abuzər müəllim keçmiş SSRİ-də kitabxanaşünaslıq elminin formalaşmasında və inkişafında öz dəsti-xətti olan alimdir. O, ilk dəfə kitabxanaşünaslıq elmini tarixlə əlaqələndirmiş və 1961-ci ildə "Azərbaycanda kitabxana işinin tarixindən (1920-1932-ci illər)" mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsini almışdır.

1964-cü ildə SSRİ Ali Attestasiya Komissiyası A.Xələfova dosent elmi adı vermişdir. Məhz bu illərdən başlayaraq A.Xələfov Moskva alimlərinin diqqətini cəlb etmiş və o, keçmiş ittifaqda kitabxanaşünaslığın ayrı-ayrı problemləri ilə bağlı bütün tədbirlərə dəvət olunmuşdur. 1965-ci ildə SSRİ Mədəniyyət Nazirliyi yanında idarələrarası kitabxana şurasının daimi üzvü seçilmiş və 80-ci illərin sonuna qədər bu mötəbər təşkilatda aparıcı mütəxəssis kimi fəaliyyət göstərmişdir. Abuzər müəllim elmi fəaliyyəti ilə yanaşı ictimai fəaliyyətini də davam etdirmiş və onun bu əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmiş, neçə-neçə medal və Fəxri fərmana layiq görülmüşdür.

1974-cü ildə onun "Azərbaycanda kitabxana işinin tarixi (1933-1958)" adlı monoqrafiyası nəşr olunmuşdur. Bu monoqrafiya Abuzər Xələfovun 1975-ci ildə müdafiə etdiyi doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. Fəxrlə qeyd edilməlidir ki, bu işi keçmiş ittifaqda tarix elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüş ilk dissertasiya olmuşdur. Əsər məşhur kitabxanaşünas alimlərindən A.Y.Çernyak, K.İ.Abramov və başqaları tərəfindən yüksək qiymətləndirilmişdir.

1978-ci ildə A.Xələfova SSRİ Ali Attestasiya Komissiyası (AAK) tərəfindən BDU-nun Kitabxanaşünaslıq kafedrası üzrə professor elmi adı verilmişdir. O, Zaqafqaziyada və Orta Asiyada, kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq elmləri üzrə ilk elmlər doktoru və professordur. A.Xələfovun Moskva, Vilnüs, Tbilisi, Kazan, Daşkənd və digər şəhərlərdəki ixtisaslaşdırılmış müdafiə şuralarındakı, kitabxanaşünaslığın aktual problemlərinə həsr olunmuş elmi konfranslarda, simpoziumlarda maraqlı çıxışları, məntiqi mühakimələri, elmi diskussiyaları xalqımıza başucalığı gətirmişdir.

A.A.Xələfov keçmiş ittifaqda kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq üzrə alimlərin hazırlanmasında xüsusi xidmət göstərmişdir. Bu sahədəki fəaliyyətini şərti olaraq üç istiqamətə bölmək olar. Birincisi, rəsmi opponenti olduğu dissertasiyalar, ikincisi, rəy verdiyi namizədlik və doktorluq dissertasiyaları, üçüncüsü, aparıcı müəssisə kimi, bilavasitə rəhbərlik etdiyi kitabxanaşünaslıq kafedrası tərəfindən rəy verdiyi dissertasiya işləri.

Bütün bunlarla yanaşı Abuzər müəllim imkan düşdükcə öz aspirantlarını da beynəlxalq arenaya çıxarmış və onların müdafiə işlərini Rusiyada təşkil etmişdir. Belə ki, 1984-cü ildə Abuzər müəllimin aspirantı X.İsmayılov Moskva Mədəniyyət İnstitutunda namizədlik dissertasiyası müdafiə edərək pedaqoji elmlər namizədi alimlik adını almışdır. Bir neçə il sonra, yəni 1987-ci ildə Abuzər müəllimin başqa bir yetirməsi N.İsmayılov da Moskvada namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir.

A.Xələfov indi də istər MDB dövlətləri, istərsə də dünya ölkələri ilə beynəlxalq elmi əlaqələrini davam etdirir. 2000-ci ilin əvvəllərində Rusiyanın görkəmli kitabxanaşünas alimlərindən T.F.Karatıgina, M.Y.Dvorkina və başqalarının BDU-nun Kitabxanaçılıq fakültəsində keçirilən dissertasiya işlərinin müdafiəsində çıxış edərək Abuzər Xələfovun elmi irsinin yüksək qiymətləndirilməsi buna əyani sübutdur. Bu elmi əlaqələri yüksək qiymətləndirən Rusiyanın "Библиотековедение" (2000-ci il №1) və "Научная Техническая Библиотека" (2001-ci il №6) jurnallarının rəhbərliyi dosent R.Kazımov və Z.Baxşəliyevin imzası ilə Rusiya-Azərbaycan mədəni əlaqələrinin inkişafında elmə və ona rəhbərlik edən insanlara, o cümlədən Abuzər müəllimə minnətdarlıq hissi bildiriblər. Rusiya alimləri Abuzər müəllimin elmi fəaliyyətini yüksək qiymətləndirərək 2000-ci ildə onu Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının müxbir üzvü, 2001-ci ildə isə həqiqi üzvü (akademik) seçmişlər. 2001-ci ildə Abuzər müəllim, həmçinin bu mötəbər Akademiyanın və Rusiya Yazıçılar İttifaqının "Xeyriyyəçilik və maarifçilik" medalı ilə təltif edilmişdir. 2003-cü ildə Beynəlxalq İnformasiyalaşdırma Akademiyası özündə 60 akademiki birləşdirmişdir ki, onların da ilk öncülü A.Xələfov olmuşdur.

2001-ci ildə A.Xələfovun elmi-tədqiqat fəaliyyəti ilə Amerika kitabxanaşünas alimləri də maraqlanmış və o, həmin il Amerika Bioqrafiya İnstitutu tərəfindən "Görkəmli liderlərin beynəlxalq soraq kitabının" II nəşrinə daxil edilmiş və ona Abuzər Xələfovun adı həkk edilmiş "Qızıl medal" və fəxri fərman təqdim edilmişdir. 2004-cü ildə isə Amerika Bioqrafiya İnstitutu Abuzər Xələfovu 2004-cü ilin adamı seçmişdir. Bir il öncə, yəni 2003-cü ildə Bakı Dövlət Universiteti ilə ABŞ-ın İndiana Universiteti arasında əlaqə proqramı çərçivəsində Abuzər Xələfovun yetişdirməsi, Kitabxanaçılıq-informasiya fakültəsinin müəllimi Ə.Məmmədov 5 ay müddətində ABŞ-ın Blüminqton şəhərində ezamiyyətdə olduğu müddətdə Abuzər müəllimin son illərdə yazdığı kitabları orada nümayiş etdirmiş və bu əsərlər İndiana Universitetinin Kitabxana-informasiya Elmləri Məktəbində böyük maraq doğurmuşdur. İndiana Universiteti kitabxana-informasiya elmləri məktəbinin dekanı, doktor Blez Kronunnin göstərişi ilə A.Xələfovun kitabları Universitetin əsas kitabxanasının fonduna təqdim edilmişdir. Az sonra həmin kitablar İndiana Universitetinin İnternet səhifəsindəki Elektron kataloqa daxil edilmişdir. Beləliklə, respublikamızın kitabxanaşünas alimlərindən, ilk növbədə professor A.Xələfovun əsərləri birinci dəfə ABŞ kitabxanalarının elektron kataloqunda öz əksini tapmışdır.

2002-ci ildə A.Xələfovun Misir Ərəb Respublikasına səfəri də beynəlxalq kitabxana ictimaiyyəti tərəfindən maraqla qarşılanıb. Alim bu səfərə dünyanın ən məşhur kitabxanası olan qədim İsgəndəriyyə kitabxanasının təntənəli açılış mərasimində iştirak etmək üçün həmin kitabxananın müdiri doktor İsmayıl Sıracəddin tərəfindən rəsmən dəvət olunmuşdu. Təntənəli açılış mərasimində MƏR prezidenti Hüsnü Mübarək, Fransa prezidenti Jak Şirakla yanaşı, bir çox dövlətlərin yüksək rütbəli mədəniyyət xadimləri, o cümlədən Abuzər Xələfov, Əhməd Kamil (Misir), Əbdül Lətif Əhməd (Küveyt), Hənan Əşrəfi (Fələstin), Jak Attalu (Fransa), Marqaret Katley-Karlson (Kanada), Umberto Eko (İtaliya), Hans Pefpir (Almaniya) və başqa tanınmış simalar iştirak etmişlər. Açılış zamanı geniş məruzə ilə çıxış edən MƏR-in prezidenti H.Mübarək cəmiyyətdə kitabın və kitabxanaların rolunu yüksək qiymətləndirmiş, dünyanın ən zəngin mədəniyyət ocaqlarından birinin-İsgəndəriyyə Kitabxanasının minilliklərin ağır sınağından şərəflə çıxmasını və yenidən dünyanın qabaqcıl texnologiyasına uyğun bərpa edilərək çoxsaylı oxucuların istifadəsinə verilməsini böyük mədəni hadisə adlandırmışdır.

Abuzər Xələfov beynəlxalq miqyaslı alim olmaqla yanaşı, həm də əməli saleh insan, Allaha dərin inam və məhəbbət bəsləyən şəxsdir. O, üç dəfə müqəddəs yerləri ziyarət etmiş, 1998-ci il martın 31-dən aprelin 17-dək Səudiyyə Ərəbistanında Məkkə və Mədinə şəhərlərində Həcc ziyarətində, 1999-cu il iyunun 14-dən 27-dək İran İslam Respublikasının Məşhəd şəhərində, 2001-ci ildə isə İraqın Kərbəla şəhərində müqəddəs İmam Hüseyn məqbərəsində ziyarətdə olmuşdur.

Hazırda Abuzər müəllim ömrünün kamillik çağını yaşayır. Biz bu gözəl alimi, qayğıkeş müəllimi və səmimi insanı yetmiş beş illik yubileyi münasibətilə təbrik edir, ona cansağlığı və beynəlxalq aləmdə yeni-yeni uğurlar arzulayırıq.


*Mehmanəli MƏMMƏDOV,*
***BDU-nun kitabxanaçılıq-informasiya fakültəsinin dekan müavini, pedaqoji elmlər namizədi, dosent***

*Tahir SADIQOV,*
***C.Cabbarlı adına Respublika Gənclər kitabxanasının direktoru***